# Utanmasan oynamağa nə var ki...

*namərd qonşu həm də... xalça oğrusuymuş...*

Çox qədim zamanlardan xalqımızın dünyada tanınma nişanına çevrilən xalçamıza bədnam qonşuların yiyə çıxmaq iddiası təzə məsələ deyil. Musiqimizə və tarixi-etnoqrafik dəyərlərimizə zaman-zaman ortaq çıxan bədxahlarımızın xalçaya yönəli əsassız, üzdəniraq "elmi təşəbbüs"ləri isə bütün çərçivələri aşıb. Etiraf edək ki, sovet dönəmində - dünya şöhrətli xalçaçı rəssam Lətif Kərimovun (1906-1991) sağlığında onların saxtakarlığına müəyyən qədər cavab verilsə də, Moskvada onlara himayədarlar tapıldığından ermənilər özünəməxsus "elmi kəşflər" ortaya qoymaqda davam edirdilər. Belə faktlardan birinə lap bu yaxınlarda rast gəlmişəm.

"Tam orta məktəblərimizdə təsviri sənət məşğələləri vasitəsilə xalq rəssamı Lətif Kərimovun yaradıcılığının təbliği" məqaləsini yazarkən diqqətimi bir jurnal çəkdi. Moskvada nəşr olunan, lakin buraxılış ili bəlli olmayan bu jurnal "Sovetskie kovrı ruçnoy rabotı" adlanır. Buraxılış ili məlum olmasa da, jurnal üzərində yazılmış "NOVOGKSPORT" və "SSSR-Moskva" sözlərindən aydın olur ki, jurnal SSRİ dövründə nəşr olunub. Jurnalda keçmiş SSRİ məkanında xalçaçılıqla məşğul olan xalqlar haqqında məlumat verilib və xalça nümunələrinin rəngli şəkilləri çap olunub. O cümlədən "Kovrı Azerbaydjana" bölməsində Azərbaycan xalçalarının "Quba", "Şirvan", "Qazax", "Qarabağ" qruplarına bölündüyü göstərilir. İlk baxışda müəyyən təhriflər olsa da, bütünlükdə haqqımızda verilən informasiya ilə razılaşmaq olar. Lakin hər şey - bizi narazı sala biləcək məqam növbəti "Kovrı Armenii" bölməsi ilə tanışlıqdan sonra başlayır.



Moskvalı havadarların növbəti himayədarlığı ilə üzdəniraq "qonşularımız" növbəti riyakarlıq və saxtakarlığını biruzə verməkdən yenə çəkin-mə-mişlər.

Jurnalda verilmiş mate-rial-la tanışlıqdan belə məlum olur ki, guya ermənilər "xalçaçılıq sahəsində çox qədim ənənələrə malik bir xalqmış". Bu azmış kimi materialda göstərilir ki, əllə toxunan müasir "erməni xalçaları" 3 qrupa bölünür:

Birinci qrupa - kifayət qədər yüksək sıxlığa (bir kvadrat-metrdə 220-250 min ilmə) və nisbətən alçaq xova (5-6 mm) malik "Quba-Şirvan" adlı xalçalar aiddir.(?)

İkinci qrupa - orta sıxlığa malik (bir kvadrat-metrdə 160-200 min ilmə) və xovunun hündürlüyü 6-8 mm olan "Yerevan", "Lori" (?) adlı xalçalar aiddir.(?)

Üçüncü qrupa - bir kvadrat-metrdə 110-125 min ilmə sıxlığına malik, xovunun hündürlüyü 8-10 mm olan "Qazax", "Qarabağ" (?) xalçaları aiddir.(?)

"Erməni xalçaları"nın ayrıldığı qrupları qiymətləndirməyi oxucuların ixtiyarına buraxırıq. Belə ki, "Quba","Şirvan", "Qazax" və "Qarabağ" adlarının istər mənşəyi, istər sözlərin mənası, istərsə də ərazi mənsubiyyətinin özü və bunların həyasızcasına təhrif olunması bir daha ermənilərin iç üzünü açıb göstərir. Lakin onlar özləri də hiss etmədən etiraf edirlər ki, erməni xalqının "çoxcəhətli" incəsənətinin bütün xarakterik və özünəməxsus cəhətləri Azərbaycana məxsusdur.

Tədqiqatçı-alim İslam Sadıqın 1992-ci ildə Bakıda nəşr olunan və bütünlükdə erməni saxtakarlığının ifşasından bəhs edən "Susmaq qızıl deyilmiş" kitabında ermənilərin özlərini ifşa edən bir fikri xalçaçılıqla bağlı olduğundan onu xatırlamağa ehtiyac duyduq. Həmin fikir bir erməni sənətşünasının yazdıqlarından götürülmüşdür: "Əllə toxunan Azərbaycan xalçalarının - "Quba", "Şirvan", "Qazax", "Qarabağ" - rəsmlərinə, ornament formalarının müxtəlifliyinə, rəng çalarlarının zənginliyinə görə dünyada tayı-bərabəri yoxdur."

Ermənilərin tarixən bir xalq kimi xəyanətkar olduğunu "Qədim Dünya tarixi" adlı sanballı əsərin müəllifləri - doktor Vinkler, Karl Nibur və Henrix Şure də qeyd etmişlər. Onlar bildirirlər ki, erməni xalqı özünün riyakarlığı, hiyləgərliyi ilə fərqlənir, "çürütmə fermenti" olub, təhlükəli bir tüfeyli kimi hər sağlam bədəni söküb-dağıdır.

Ermənilərlə kifayət qədər ünsiyyətdə olmuş gürcü şairi İlya Çavçavadze isə onların saxtalaşdırma "təcrübə"sindən yazmışdır: "...dəlilləri təhrif etmək, özgəninkini mənimsəmək, abidələri pozmaq və qazmaq, özgə torpaqlarını özünə çıxmaq və s. buna bənzər "yaxşılıqlar" ermənilərin çox qədim "hünəridir" və buna onlar lap qədimdən alışmışlar." (İ. Çavçavadze. «Armənskie uçenıe i vopiöhie kamni», Tiflis, 1902, str. 97-98).

Jurnalda çap olunmuş 13 "erməni xalça məmulatından" on birinin, adından da məlum olduğu kimi, Azərbaycana məxsusluğu heç bir şübhə doğurmur. Onlardan dördünün "Quba-Şirvan", dördünün "Qazax-Qarabağ", ikisinin "Qazax", birinin də "Şirvan" "erməni" (?) xalça qrupuna aid olduğu yazılmışdır.

Çap olunmuş ikinci xalça fraqmentinin səkkizguşəli ulduzlardan ibarət olan haşiyə naxışları da sanki qəsdən - diqqəti cəlb etmək üçün böyüdülərək təqdim olunub. Əslində, bunun özü də onların özünə qarşı yönəlmişdir. Sual oluna bilər ki, bu həyasız-abırsız bədxahlarımızın "erməni" xalçalarının üzərində Azərbaycan bayrağında olan səkkizguşəli ulduz toxumaları hansı məqsəd daşıyır? Bunun özü özünəməxsus ornament-naxış tapmağa qüdrəti çatmayanların özgə dəyərlərinə möhtac olduğuna sübut deyilmi?

Azərbaycan xalçalarının şəkillərinə baxdıqca oxucuda istər-istəməz sual yaranır: "Ay tayqulaq andranikin tör-töküntüləri, axı nə vaxtdan "Quba-Şirvan", "Qazax-Qarabağ" xalçaçılıq məktəbləri ermənilərə məxsus olub? Bu sərsəm xəyallarınız millətinizi bütöv dünyada ifşa etməklə yanaşı, sizi uçuruma aparmırmı? Heç olmasa öz millətinizin tək-tək ağıllı nümayəndələrinə qulaq asın ki, bəlkə ayılasınız. Bir el məsəlimizdə "İt hürər, karvan keçər" deyilsə də, gələcək üçün təhlükəli elmi zəminlər yarada biləcək cəfəngiyyatlar qarşısında susmaq olmur...

Xalça üzrə ekspert Georq Saakyanın vaxtilə Lətif Kərimova yazdığı məktubu bir daha xatırlatmaq yerinə düşər: *"Mən Zaqafqaziya xalçaları üzrə Avropada bir o qədər də çox olmayan mütəxəssislərdən biriyəm. Bu yaxınlarda çətinliklə də olsa, sizin "Azərbaycan xalçası" kitabınızı tapa bildim. Bu mənim üçün əsl xoşbəxtlikdir. Bu qiymətli kitab Zaqafqaziya xalçalarındakı ornamentlərin mənşəyini öyrənmək üçün əsl mənbədir. Əsərinizlə tanışlıqdan sonra mənə vacib bir şey də aydın oldu: Zaqafqaziya xalçalarının 90 faizi Azərbaycana məxsus imiş.*

*Siz hörmət və ehtirama layiqsiniz, cənab Kərimov".*

*Ekspert Georq Saakyan*

*Brüssel, Belçika.*

Rəhmətlik Lətif müəllimin özü isə bir fikri deməkdən və yazmaqdan usanmazdı: "Xalçanı sevin. Xalça heç vaxt sizi tənha qoymaz, xəyanət etməz. Xalça həmişə sizi saxlayar, müdafiə edər, kömək edər və sevindirər."

Gəlin hamılıqla bu ağsaqqal məsləhətinə, böyük xalça ustasının tövsiyəsinə əməl edək, xalçalarımız və xalçaçılıq sənətimizin müqəddəsliyini, saflığını qoruyub, gələcək nəsillərə ötürək, ona doğru uzanan mənfur əlləri birdəfəlik kəsək...

**Şaiq Məmmədov**
**Azərbaycanın Əməkdar rəssamı,**
**Gəncə Dövlət Universitetinin professoru**